Research Center
Atlas
Araşdırmalar Mərkəzi

BÜLLETEN №506|2023 YANVAR 22

ELXAN ŞAHINOĞLU



# SEPARATÇILAR "SEÇKI" ISTƏYIRLƏR

# MÖVZULAR//



## SERGEY LAVROV HƏM AZƏRBAYCANI, HƏM DƏ ERMƏNISTANI TƏNQID ETDI

*Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycanla Ermənistan arasında "balans siyasətini" davam etdirir. Rusiyanın xarici işlər naziri tərəflərdən birini tənqid edərkən, o birisini də tənqid etməyə çalışır.*

*Səh 05*



## RƏSMI BAKI ERMƏNI SEPARATÇILARINA HANSI TƏLƏBLƏRI GÖNDƏRIB?

*Rusiyanın xarici işlər naziri Sergey Lavrov yanvarın 18-də Moskvada keçirdiyi mətbuat konfransında dedi ki, bir neçə gün əvvəl Rusiya kontingentinin komandirinin iştirakı ilə Azərbaycan təmsilçisi və separatçıların nümayəndələri arasında görüş keçirilib.*

*Səh 08*




## QARABAĞDAN ERMƏNISTANA ALTERNATIV YOLLAR VARMI?

*Azərbaycan mətbutatında yayımlanan xəbərlərə görə, Qarabağdan Ermənistana bir neçə gizli yol var və həmin yoldan erməni separatçıları istifadə edirlər.*

*Səh 09*



## SEPARATÇILAR "SEÇKI" ISTƏYIRLƏR

*Qarabağ separatçıları müxtəlif ölkələrə və təşkilatlara «Qarabağ ermənilərinin vəziyyəti ağırdır, bizə kömək edin" səpgili müracitələr edərkən, separatçıların "parlamentinin sədri" Artur Tovmasyan Qarabağda növbədənkənar "prezident və parlament seçkilərinin" keçirilməsini təklif etdi.*

*Səh 10*

# MÖVZULAR//



## AZƏRBAYCANLILAR ERMƏNISTANA QAYIDACAQLARMI?

*Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsindən sonra azərbaycanlıların Qərbi Azərbaycana qayıdacağını da tez-tez açıqlayır.*
*Səh 11*



## AVROPA PARLAMENTI BIR-BIRINƏ ZIDD IKI QƏTNAMƏ QƏBUL EDIB

*Avropa Parlamentində yanvarın 18-də bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan əleyhinə sənəd qəbul olunub.*
*Səh 12*



## PAŞINYAN DAVOSA NIYƏ GETMƏDI?

*Azərbaycan prezidenti İlham Əliyev Davos iqtisadi forumunda iştirak edib. İlham Əliyev forumda ikitərəfli görüşlər keçirib, müzakirələrdə iştirak edib.*
*Səh 13*

# MÖVZULAR//

## AZƏRBAYCAN MEDİASININ HƏFTƏLİK ANALİTİK MONİTORİNQİ

- *Rusiya prezidenti Vladimir Putin və onun tərəfdarları “rus dünyasının müdafiəsindən” çox danışırlar, elə Krımın ilhaqı və Ukraynaya qarşı işğalçı müharibənin başlanması səbəbini də bununla izah edirlər. Səh 14*

- *Prezident İlham Əliyev yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinə səfər etdi. Səh 14*

- *İran Rusiyadan Su-35 hərbi təyyarələri almağı planlaşdırır. Rusiya bu il ərzində İrana həm hərbi təyyarələr, həm də helikopterlər satacaq. Səh 15*

- *Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu iranlı həmkarı Hüseyn Əmir Abdullahian ilə görüşdə "3+3" (Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə, Rusiya, İran) formatını müzakirə edib. Səh 15*



# SERGEY LAVROV HƏM AZƏRBAYCANI, HƏM DƏ ERMƏNISTANI TƏNQID ETDI

*Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycanla Ermənistan arasında "balans siyasətini" davam etdirir. Rusiyanın xarici işlər naziri tərəflərdən birini tənqid edərkən, o birisini də tənqid etməyə çalışır.*

*Sergey Lavrov yanvarın 18-də Moskvada ötən ilin yekunlarıyla bağlı mətbuat konfransı keçirtdi. O mətbuat konfransında dedi ki, Laçın dəhlizi 9 noyabr 2020-ci il tarixli razılaşmaya əsasən, yüklərin, vətəndaşların və nəqliyyat vasitələrinin keçidi üçün sərbəst olmalıdır. Yəni Lavrovun sözlərindən belə nəticə çıxırdı ki, guya azərbaycanlıların yoldakı aksiyasına görə bu sərbəstlik indi yoxdur. Halbuki, Laçın yolu mülki insanlar və ərzaq daşınması üçün açıqdır.*

*Sergey Lavrov azərbaycanlıların məlumatı əsasında ermənilərin bu yoldan minaların keçirməsiylə bağlı narazılığını bu şəkildə yekunlaşdırdı: "İndi hərbçilərimiz bu məlumatı öyrənirlər". Lavrov problemi gizlətmək istəyir. Rusiyaya yoldan silahların keçirilməsinə dair məlumat aksiyadan aylar əvvəl verilirdi. Rusiya bu müddətdə yoldan silahın, sursatın və minaların keçirilməsinə mane olmadı. İndi üstündən aylar keçəndən və aksiya başlayandan sonra Lavrov deyir ki, "məsələni araşdıracaqlar". Minalar keçirilib, müxtəlif istiqamətlərdə basdırılıb, müharibədən sonra minaların partlaması nəticəsində yüzlərlə Azərbaycan vətəndaşı həlak oldu və bu faciələrə şərait yaradan Rusiyanın bölgədəki hərbi kontingenti idi. Bundan sonra Rusiya hərbi kontingenti "araşdırma" apararmı?*

*Sergey Lavrov mətbuat konfransında Ermənistanı da tənqid etdi. Lavrov dedi ki, İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının missiyasının Ermənistan-Azərbaycan sərhədinə göndərilməsi barədə sənədi yerinə yetirmək əvəzinə Avropa İttifaqının missiyasına üstünlük verdi. Lavrov bu mövzuda fikirlərini belə yekunlaşdırdı: "Bu əlbəttə ki, Ermənistanın hüququdur. Lakin unutmaq lazım deyil ki, söhbət Azərbaycanla sərhəddən gedir. Yəqin ki, bu missiya Azərbaycanın razılığı olmadan sərhəddə yerləşdiriləcəksə, qeyri-məhsuldar olacaq. Sərhəddə etimadın möhkəmlənməməsi əlavə gərginliklər yarada bilər".*

*Lavrov bu məsələdə haqlıdır. Avropa İttifaqının missiyası təmas xəttində monitorinqi uzatmaqla heç nəyə nail olmayacaq, əksinə Brüssel iki mənfi nəticə ilə üzləşəcək. Birincisi, rəsmi Bakı Brüsselin bundan sonrakı vasitəçiliyinə şübhəylə yanaşacaq. İkincisi, Azərbaycan-Ermənistan sərhədinin müəyyənləşməsi uzanacaq ki, bu da əslində Avropa İttifaqının maraqlarına cavab verməməlidir.*

# QANLI 20 YANVAR FACIƏSINDƏN 33 IL ÖTÜR

*Azərbaycan tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrinin ildönümüdür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarında 147 nəfər öldürülüb, 744 nəfər yaralanıb. 1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar.*














# AZƏRBAYCAN XALQI ŞƏHIDLƏRINI YAD ETDI

*Ümumxalq Hüzn Günündə səhər saatlarından Şəhidlər xiyabanına insan axını müşahidə edildi. İnsanlar bu müqəddəs məkanda yatan şəhidlərin xatirəsini ehtiramla yad edir, onların məzarları qarşısında baş əyirlər. İzdihamın arasında dövlət rəsmiləri, səfirlər, beynəlxalq təşkilatların nümayəndələri, Bakı sakinləri, paytaxtın qonaqları və bölgələrdən gələn insanlara rast gəlmək olar.*










# RƏSMI BAKI ERMƏNI SEPARATÇILARINA HANSI TƏLƏBLƏRI GÖNDƏRIB?



*Rusiyanın xarici işlər naziri Sergey Lavrov yanvarın 18-də Moskvada keçirdiyi mətbuat konfransında dedi ki, bir neçə gün əvvəl Rusiya kontingentinin komandirinin iştirakı ilə Azərbaycan təmsilçisi və separatçıların nümayəndələri arasında görüş keçirilib. Görüş Laçın yolundakı vəziyyətlə bağlı olub. Lavrov yaxın vaxtlarda məsələnin öz həllini tapacağını düşündüyünü bildirib. Yəni Lavrovun fikrincə, bu görüşdən sonra Laçın dəhlizindəki vəziyyət dəyişməlidir. Ancaq vəziyyət belə deyil. Lavrov Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla telefonla danışıb. Ceyhun Bayramov Azərbaycanın tələblərini bir daha Lavrova bildirib. Əsas tələb Qarabağda separatçıların nəzarətində olan mis və qızıl yataqlarında monitorinqin keçirilməsidir. Çünki həmin yataqlar işlər Azərbaycan qanunlarına ziddidir. Yataqların istismarından Azərbaycan faydalana bilmir. Bundan başqa ekoloji məsələlər də var. Erməni saytları xəbər yaydılar ki, rəsmi Bakı tələblərini Qarabağdakı erməni separatçılarına göndərib. Erməni separatçılarının lideri Araik Arutunyan rəsmi Bakının tələblərini tərəfdarlarına izah edib: 1. Ruben Vardanyan Qarabağı tərk etməlidir; 2. Separatçılar mədənlərindəki işi dayandırılmalıdırlar; 3. Laçın dəhlizinin Rusiya sərhəd-keçid məntəqəsində rentgen skaner cihazları quraşdırılmalı və yüklərə nəzarət edənlər arasında Azərbaycan nümayəndəsi olmalıdır; 4. Separatçılara məxsus ağır hərbi texnika bölgədən çıxarılmalıdır.*

*Araik Arutunyan və onun separatçı ətrafı rəsmi Bakının bu tələblərini yerinə yetirməyəcəklər. Erməni mənbələrinə görə, Arutyunyanın rəsmi Bakının tələblərinə reaksiyası belə olub: "Rəsmi Bakının tələblərini yerinə yetirsək belə dəhlizin açılacağına və ya açılandan 1-2 həftə sonra yenidən bağlanmayacağına zəmanət yoxdur. Buna cavab olaraq Azərbaycan dünən qazın verilişini bir neçə saatlıq dayandırıb. Ümumiyyətlə, çətin günlər qarşıdadır".*

*Həqiqətən, erməni separatçılar üçün bundan da çətin günlər olacaq. Rəsmi Bakının iddia edildiyi kimi Rusiya hərbi kontingenti vasitəsilə separatçılara göndərdiyi tələblər prosesin başlanğıcıdır. Bundan sonra başqa tələblər irəli sürüləcək.*

# QARABAĞDAN ERMƏNISTANA ALTERNATIV YOLLAR VARMI?



*Azərbaycan mətbutatında yayımlanan xəbərlərə görə, Qarabağdan Ermənistana bir neçə gizli yol var və həmin yoldan erməni separatçıları istifadə edirlər. Bu barədə işğaldan əvvəl Qarabağda yaşayan azərbaycanlılar bildiriblər. Misal üçün Qarabağ separatçılarının lideri Araik Arutunyan Fransada görüşlərini yekunlaşdırdıqdan sonra keçən ilin dekabr ayında Yerevana qayıtdı. Arutunyan Yerevanda olarkən azərbaycanlı fəallar Laçın yolunda etiraza başladılar. Bu zaman Araik Arutunyan Yerevandan Qarabağa keçə bilmirdi. Ancaq dekabrın sonrlarında Qarabağda ermənilər mitinq keçirdilər. Həmin mitinqdə Araik Arutunyan da iştirak edirdi. Deməli, Araik Arutunyan Ermənistandan Qarabağa hansısa yolla keçmişdi. Onun Rusiyanın və ya Qırmızı Xaç Komitəsinin maşınları vasitəsilə Laçın yolundan istifadə edərək Qarabağa gəlməsi risqli olardı. Çünki bu halda Azərbaycan hərbçiləri onu həbs edə bilərdilər. Böyük ehtimalla Araik Arutunyan gizli yollardam istifadə edərək Yerevandan Qarabağa gəlmişdi.*

*Erməni separatçılarının gizli yollar vasitəsilə Ermənistandan Xankəndiyə silah və sursat daşımaları barədə fikirlər var. Bunu təsdiq və ya təkzib edəcək qurum Azərbaycan Müdafiə Nazirliyidir. Azərbaycan rəsmiləri və hərbçiləri bu barədə açıqlama verməyiblər. Bu o deməkdir ki, rəsmi Bakı gizli yolların varlığından narahat deyil. Rəsmi Bakı Ermənistanla Qarabağı birləşdirən iki asfalt yoluna nəzarət edir.*

*Aydındır ki, Ermənistanla Qarabağı birləşdirən gizli yol və ya yollar varsa onlar asfaltlanmayıb, həmin yollardan istifadə etmək asan deyil. Həmin yollar dağlardan keçir. Buna baxmayaraq, Ermənistandan Qarabağa piyada yoluyla da silah daşımaq mümkündürsə, rəsmi Bakı bunun da qarşısı alınmalıdır.*

*Azərbaycanın kəşfiyyat imkanları genişdir, erməni separatçılarının yerdəyişmələrini kosmik incələmək imkanlarımız da var. Misal üçün Azərbaycan Laşın koridoruna nəzarət etmədəyi dövrdə bu yoldan nələrin daşındığı barədə məlumatı var idi. İran maşınlarının nömrələrinin şəkilləri internetdə yayılmışdı. Azərbaycan kəşfiyyatı hətta Ermənistandan Qarabağa keçən İran vətəndaşlarının pasportlarını yayımlamışdı. Demək, əgər Qarabağla Ermənistanı birləşdirən başqa çığır yollar da varsa onlar ya nəzarətə götürülməlidir. Gizli yollardan silah daşınması təsdiqlənərsə Azərbaycan ordusunun həmin yolları nəzarətə götürmək üçün xüsusi əməliyyat həyata keçirməsi də mümkündür. Ermənistanla Qarabağı birləşdirən bütün yollar Azərbaycan sərhədçilərinin nəzarətində olmalıdır.*

# SEPARATÇILAR "SEÇKI" ISTƏYIRLƏR



*Qarabağ separatçıları müxtəlif ölkələrə və təşkilatlara «Qarabağ ermənilərinin vəziyyəti ağırdır, bizə kömək edin" səpgili müracitələr edərkən, separatçıların "parlamentinin sədri" Artur Tovmasyan Qarabağda növbədənkənar "prezident və parlament seçkilərinin" keçirilməsini təklif etdi. Artur Tovmasyan bunu bölgədə yararan böhranla əlaqələndirib.*
*Belə çıxır ki, erməni separatçıları böhrandan fərqli çıxış yolları görürlər. Erməni separatçılarının liderləri Ararik Arutunyan və Ruben Vardanyan beynəlxalq aləmin Azərbaycana təzyiq etməsini istəyərkən, "parlamentin sədri" "seçki keçirək" təklifini irəli sürüb. Deməli separatçıların öz aralarında problem var. Çünki, növbədənkənar seçkini o zaman tələb edirlər ki, idarə edənlərdən narazılıq var. Separatçıların "parlamentinin sədrinin" Araik Arutunyandan və Ruben Vardanyandan narazılığı var ki, onların yerinə iddialıdır.*
*Keçmişdə Robert Köçəryanla sıx əlaqəsi olan Artur Tovmasyanın separatçıların "Təhlükəsizlik Şurasının katibi" Vitaliy Balasanyanın istefaya göndərilməsindən də narazıdır. Görəsən Artur Tovmasyanın Nikol Paşinyandan, Araik Arutunyandan və ya Ruben Vardanyandan fərqi nədir ki, "parlamentin sədri" onların çarəsiz qaldıqları durumu separatçıların xeyrinə dəyişəcəyini düşünür?*
*Ruben Vardanyan istefa verməyəcəyini bildirib. Ancaq bu ondan asılı məsələ deyil. Ruben Vardanyan Xankəndinə gələndə Qarabağda yaşayan ermənilər ümidli idilər. Qarabağ ermənilər düşünürdülər ki, Ruben Vardanyan onların problemlərini həll edəcək. Ancaq vəziyyət daha da gərginləşdi. Azərbaycanlılar Laçın yolunda etiraza başladılar. Qarabağda iqtisadi vəziyyət ağırlaşdı. Nəticədə Qarabağda yaşayan ermənilər ərzaq məhsullarını talonla almağa başladılar.*
*Ruben Vardanyan Azərbaycanı "düşmən" adlandırır. Bu isə rəsmi Bakının Qarabağ separatçılarına qarşı təzyiqi artırmağa sövq edib. Qarabağ erməniləri üçün ən yaxşı variant Ruben Vardanyanın geri qayıtmasıdır. Ancaq Vardanyan Rusiya vətəndaşlığından çıxarılıb. Ruben Vardanyanın gələcəkdə Avropa ölkələrindən birinə köçməsi ehtimalı yüksəkdir.*

# AZƏRBAYCANLILAR ERMƏNISTANA QAYIDACAQLARMI?



*Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsindən sonra azərbaycanlıların Qərbi Azərbaycana qayıdacağını da tez-tez açıqlayır. Qərbi Azərbaycan Ermənistan ərazisində yerləşir. Azərbaycanlılar tarixən bu ərazilərdə yaşayıblar. Azərbaycanlılar Ermənistan ərazisindən 4 dəfə deportasiya (1905-06, 1918-21, 1948-53 və 1988-91) ediliblər. Nəticədə Ermənistanda vaxtilə yaşayan yüzminlərlə azərbaycanlı Azərbaycana köçüblər.*

*2022-ci ildə Bakıda "Qərbi Azərbaycan İcması" təşkilatı yaradıldı. Bu təşkilat vaxtilə Ermənistanda yaşayamış azərbaycanlıların siyahısını tərtib etməyə başlayıb. Bundan başqa təşkilat Ermənistandan müxtəlif illərdə qovulan azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğuldur. Təşkilatın xarici ölkələrdə nümayəndəlikləri də fəaliyyət göstərəcək. Təşkilat Ermənistandan qovulan azərbaycanlıların problemlərini beynəlxalq təşkilatlarda müzakirəsinə çalışacaq.*

*Azərbaycanlılar Ermənistana necə qayıdacaqlar?*

*Aydındır ki, indiki vəziyyətdə azərbaycanlıların Qərbi Azərbaycana, yəni indiki Ermənistan ərazisinə qaydışı mümkün deyil. Birincisi, Ermənistan buna mane olacaq. İkincisi, Ermənistana qayıtmaq istəyən azərbaycanlıların təhlükəsizlik problemləri həll olunmalıdır.*

*Buna baxmayaraq, prezident İlham Əliyev azərbaycanlıların indiki Ermənistan ərazisinə qayıdacağına əmindir. Bəziləri bunu belə anlayır ki, Azərbaycan Ermənistanla müharibə edəcək və Zəngəzuru Azərbaycana birləşdirəcək və bundan sonra azərbaycanlılar həmin ərazidə məskunlaşacaqlar. İlham Əliyev və Azərbaycan cəmiyyəti Qərbi Azərbaycanın torpaqlarının geri qaytarılması üçün müharibə istəmir.*

*Rəsmi Bakının strategiyası belədir: 1. Ermənistan getdikcə zəifləyir və azərbaycanlıların Qərbi Azərbaycana geri qayıtmasına razılaşır; 2. Əgər Qarabağda ermənilər gələcəkdə yaşayacaqlarsa Ermənistan ərazisində də azərbaycanlılar yaşamalıdırlar; 3. Qərbi Azərbaycan mövzusu Ermənistan hakimiyyətinə təzyiqi artırmağa imkan verib.*

*Azərbaycanlılar vaxtilə Zəngəzur ərazisindən qovulduqdan sonra bir sıra qəsəbələr və kəndlər boşdurlar, ermənilər oralarda yaşamırlar. İlham Əliyevin fikrincə, azərbaycanlıların həmin qəsəbələrə və kəndlərə geri qaytırlması mümkün olacaq. Bütün hallarda gələcəkdə Ermənistana qayıtmaq istəyən azərbaycanlıların təhlükəsizlik məsələləri həll olunmalıdır.*

# AVROPA PARLAMENTI BIR-BIRINƏ ZIDD IKI QƏTNAMƏ QƏBUL EDIB



*Avropa Parlamentində yanvarın 18-də bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan əleyhinə sənəd qəbul olunub. Erməni separatçılarının mövqeyini müdafiə edən həmin sənəddə Azərbaycandan Laçın yolunu açmaq tələb olunub. Sənəddə Rusiya hərbi kontingentinin bölgədəki fəaliyyəti tənqid olunaraq onun ATƏT-in sülhməramlı qüvvələrlə əvəz edilməsi gərəkliyi bildirilib. Məgər ATƏT-in sülhməramlı qüvvələri mövcuddur? Sənəddə başqa ziddiyyət də var, Azərbaycan Ermənistanın Qarabağdakı ermənilərlə "nəqliyyat, energetika və kommunikasiya əlaqələrini pozmamağa" çağırılıb.*

*Bu Avropanın özünün qəbul etdiyi prinsiplərə ziddir. Çünki Avropa Parlamentinin haqqında danışdığı kommunikasiya xətləri Azərbaycanın ərazi bütövlüyü və qanunları pozularaq çəkilib. Bu kommunikasiya xətləri Azərbaycan qanunlarına uyğunlaşdırılmalıdır. Bu ona bənzəyər ki, Fransanın hansısa əyaləti Parisin icazəsi olmadan Almaniyadan qaz və elektrik nəql edir.*

*Maraqlıdır ki, Avropa Parlamenti öz qərarlarına hörmət etmir. Avropa Parlamenti təxminən 4 il əvvəl, 2018-ci ilin dekabr ayında "Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik sahəsində ümumi siyasəti barədə" qətnamə qəbul edib. Sənəddə tərəfdaş ölkələrin ərazisində dondurulmuş münaqişələrin, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq nizamlanmasının zəruriliyi vurğulanıb. Bundan başqa, qətnamə münaqişə nəticəsində doğma yurdlarından didərgin düşmüş şəxslərə dəstəyi gücləndirməyə, tərəfdaş ölkələrin ərazisində vəziyyətin destabilizasiyası məqsədilə üçüncü tərəflərin müdaxilə cəhdlərinin qarşısını almağa çağırıb. Yəni həmin qətnamə faktiki Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyib. Yeni sənədin heç bir bəndində isə yazılmayıb ki, Qarabağda yaşayan ermənilər Azərbaycan qanunlarına tabe olmalı və Azərbaycanın ərazi bütövlüyü əleyhinə təxribatlara yol verməməlidirlər.*

*Diplomatlarımız Avropa Parlamentinin iki qətnaməsi arasındakı ziddiyyəti avropalı deputatların diqqətinə çatdırmalıdırlar. Birində münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli vacibliyi vurğulanıb, digərində separatizmə dəstək ifadə olunub. Qoy izah etsinlər ki, eyni qurum bir-birinə zidd iki sənədi necə qəbul edə bilər? Avropa Parlamenti bir neçə il əvvəl müstəqil olmaq istəyən katalonlara yox dedi, İspaniyanın ərazi bütövlüyünü dəstəklədi, tərəfdaşları Ukraynanın, Gürcüstanın və Moldovanın da ərazi bütövlüyünü dəstəkləyir, Azərbaycana gəldikdə isə sanksiya qəbul etdikləri Rusiyaya bağlı olan erməni separatçılarına dəstək verirlər. Diplomatlarımız Avropa Parlamentində Azərbaycan əleyhinə sənəd qəbul edənlərdən bunun izahını tələb etməlidirlər.*

# PAŞINYAN DAVOSA NIYƏ GETMƏDI?




*Azərbaycan prezidenti İlham Əliyev Davos iqtisadi forumunda iştirak edib. İlham Əliyev forumda ikitərəfli görüşlər keçirib, müzakirələrdə iştirak edib. Belə müzakirələrin biri İlham Əliyev və Gürcüstanın baş naziri İrakli Qaribaşvili arasında olub.*

*Ermənistanın baş naziri Nikol Paşinyan Davos forumunda iştirak etmədi. Paşinyan foruma qatılsaydı, Cənubi Qafqaz ölkəsinin 3 lideri arasında görüş keçirilə bilərdi. Gürcüstan Azərbaycanla Ermənistan arasında vasitəçi olmaq istəyir. İlham Əliyev Qaribaşvilinin bu təklifə müsbət yanaşır və liderlərin Tiflisdə görüşməsinə tərəfdardır. Qaribaşvili bu təklifi Paşinyana da bildirib. Ancaq Paşinyan Gürcüstanın vasitəçiliyi ilə konkret cavab verməyib.*

*Nikol Paşinyan liderlərin Gürcüstanda görüş təklifinə niyə müsbət cavab vermir?*

*Paşinyan Avropa dövləti Fransanın vasitəçi olmasını istəyir, bölgə ölkəsi, o cümlədən Azərbaycan və Ermənistanla tərəfdaşlıq münasibəti olan Gürcüstanın vasitəçiliyini isə qəbul etmir. Bunun iki səbəbi var.*

*Birincisi, Gürcüstan da Azərbaycan kimi münaqişələrin həllinə ərazi bütövlüyü prinsipindən yanaşır, çünki özünün oxşar problem mövcuddur.*

*İkincisi, Gürcüstanla Azərbaycanı gəlir gətirən müxtəlif regional layihələr birləşdirir. Gürcüstanın Ermənistanla ortaq layihəsi yoxdur. Gürcüstan-Azərbaycan ticarət mübadiləsinin həcmi Gürcüstan-Ermənistan ticarət mübadiləsinin həcmini dəfələrlə üstələyir.*

*Belə olan halda Paşinyan düşünür ki, o Gürcüstanın vasitəçiliyinə razılaşsa, Tiflis istər-istəməz Azərbaycanın mövqeyini dəstəkləyəcək. Ancaq Paşinyan sülhdən danışarsa, bunun yollarından biri ümumi Cənubi Qafqaz evinin yaradılmasından keçir, yox əgər erməni separatçılığına dəstək davam edəcəksə, nə ümumi ev olacaq, nə də Ermənistanı rahat həyat gözləyəcək.*

- *Rusiya prezidenti Vladimir Putin və onun tərəfdarları "rus dünyasının müdafiəsindən" çox danışırlar, elə Krımın ilhaqı və Ukraynaya qarşı işğalçı müharibənin başlanması səbəbini də bununla izah edirlər. Yəni Putin deyir ki, guya o Ukraynadakı rusları Kiyevdəki "faşist rejimindən" qurtarmaq üçün müharibəyə başlayıb. Bu bəhanədir. Rus dünyasını düşünən Ukraynanın şəhərlərini bombalamazdı, mülki insanları qətlə yetirməzdi. Rusiyanın işğalçı ordusu geri çəkildiyi ərazilərdə qətliamlar törədib, Ukraynada ölənlər arasında rus mənşəli vətəndaşlar da var. Rusiya ordusunda ölənlərin sayı 100 mini keçib. Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsi SSRİ-nin Almaniyaya qarşı müharibəsinə bənzəmir. Almaniya SSRİ-yə hücum etmişdi, SSRİ işğalçılara qarşı savaşırdı, indi isə tərsinə işğalçı Rusiyadır, işğala qarşı savaşan isə Ukraynadır. İşğalçılar gec və ya tez məğlub olurlar.*



- *Prezident İlham Əliyev yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinə səfər etdi. Əliyev Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşdü. Birləşmiş Ərəb Əmirlikləri son illərdə Azərbaycan sıx əlaqələr qurub. Bu ölkə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvüdür. Birləşmiş Ərəb Əmirlikləri BMT-də Cənubi Qafqaz regionuna aid müzakirələrdə Azərbaycana dəstək verib. Buna görə İlham Əliyev Birləşmiş Ərəb Əmirlikləri prezidentinə təşəkkür edib. İki ölkə arasında iqtisadi və ticarət əlaqələri də artıb. Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycana yatırımlarının həcmini artıracağı proqnozlaşdırılır.*



- *İran Rusiyadan Su-35 hərbi təyyarələri almağı planlaşdırır. Rusiya bu il ərzində İrana həm hərbi təyyarələr, həm də helikopterlər satacaq. ABŞ və bəzi bölgə ölkələri Rusiya-İran hərbi əməkdaşlığından narahatdırlar. İranın hərbi təyyarələri köhnədir. Rusiya İrandan pilotsuz uçuş aparatları alır. Rusiya dronlardan Ukraynaya qarşı müharibədə istifadə edir. Rusiya bunun əvəzinə İrana hərbi texnika satmağa qərar verib. İran pilotları hazırda Rusiyada Su-35 təyyarələrini idarə etmək məqsədilə təlimlərdə iştirak edirlər.*



- *Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu iranlı həmkarı Hüseyn Əmir Abdullahian ilə görüşdə "3+3" (Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə, Rusiya, İran) formatını müzakirə edib. Çavuşoğlu bildirib ki, Cənubi Qafqazda sabitlik hər iki tərəf üçün önəmlidir. O, regionda həyata keçiriləcək infrastruktur layihələrinin hər kəs üçün xeyirli olacağını ifadə edib. Nazirlərin görüşü zamanı, həmçinin Azərbaycan-Türkiyə-İran formatı çərçivəsində görüşlərin keçirilməsi barədə də fikir mübadiləsi aparılıb. Rəsmi Bakı Ankaranın irəli sürdüyü 3+3 təklifini dəstəkləyib. Ancaq İran rejiminin Azərbaycana qarşı təxribatı davam etdikcə, 3+3 platformasının reallaşması çətindir.*



# "ATLAS" ARAŞDIRMALAR MƏRKƏZI ILƏ ƏLAQƏ

+994503557274

elhansahinoglu@yahoo.com

HTTPS://WWW.FACEBOOK.COM/ELKHAN.SAHINOGLU

## XÜSUSI SIFARIŞLƏR ƏSASINDA MUXTƏLIF MÖVZULARDA GENIŞ SIYASI ANALIZLƏR HAZIRLAYIRIQ